**AZƏRBAYCAN RESPUBLİKASININ**
**SƏHİYYƏ NAZİRİ**

# Ə M R

№ 56

Bakı şəhəri "27" iyun 2014-cü il

**"Azərbaycan Tibb Universitetinə 2014/2015-ci tədris ili üçün əsas tibb təhsili üzrə tələbə qəbulu planı haqqında"**

"2014/2015-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin bakalavriat, magistratura, rezidentura səviyyələrinə və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu planlarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbərinin 2014-cü il 02 aprel tarixli 30 nömrəli sərəncamına əsasən Azərbaycan Tibb Universitetinə əsas tibb təhsili üzrə 980 tələbə qəbulu müəyyən edilmişdir. Qeyd olunanları nəzərə alaraq

## ƏMR EDİRƏM:

1. 2014/2015-ci tədris ili üçün əsas tibb təhsili üzrə təsdiq olunmuş tələbə qəbulu planı icra olunmaq üçün Azərbaycan Tibb Universitetinə təqdim edilsin (əlavə olunur).

2. Azərbaycan Tibb Universitetinin rektoru Ə.Əmiraslanova tapşırılsın:

2.1. 2014/2015-ci tədris ili üçün təsdiq olunmuş əsas tibb təhsili üzrə tələbə qəbulu planından irəli gələn təşkilati və metodik məsələlər həll edilsin;

2.2. 2014/2015-ci tədris ili üçün əsas tibb təhsili üzrə tələbə qəbulunun yekunları barədə Səhiyyə Nazirliyinə məlumat verilsin.

3. Əmrin icrasına nəzarət nazir müavini N.Əliyevaya həvalə edilsin.

**Oqtay Şirəliyev**

## Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin
## Azərbaycan Tibb Universiteti

**(Müsabiqə Azərbaycan və rus bölmələri üzrə birgə aparılır)**

| Sıra №-si | İxtisasın şifri | İxtisasın adı | Cəmi | Dövlət sifarişi və ödənişli Azərbaycan və rus bölmələri | | Ödənişli əsaslarla təhsil alanların illik təhsil haqlarının məbləği (manatla) | |
|---|---|---|---|---|---|---|---|
| | | | | əyani | qiyabi | əyani | qiyabi |
| 1. | 070101 | Müalicə işi | 635 | 635 | | 3000 | |
| 2. | 070102 | Hərbi-həkim işi** | 90 | 90 | | | |
| 3. | 070103 | Tibbi profilaktika | 80 | 80 | | 2000 | |
| 4. | 070104 | Stomatologiya | 100 | 100 | | 3000 | |
| 5. | 050806 | Əczaçılıq | 75 | 75 | | 2000 | |
| **Cəmi** | | | 980 | 980 | | | |

** Tələbə qəbulu yalnız dövlət sifarişi əsasında aparılır.